# GÖYƏRÇİN

İSSN-0207-4710
2012-ci il
5





Hekayə



Şeir



Nağıl

Nağıl vaxtı

# DOVŞAN VƏ ÇAQQAL

*Mankan (Afrika) nağılı*

Dovşanın bir ağ papağı var idi. Bu papağı ona atası tikmişdi. Ancaq dovşancığaz bu papağı başında çox gəzdirə bilmədi. Ağ papağı görən çaqqal onu dovşanın başından götürdü. Dovşan nə qədər yalvardısa da, tülkü onun papağını qaytarmadı. Dovşan ağlaya-ağlaya evlərinə getdi və and içdi ki, çaqqaldan intiqam alacaq.

Bir dəfə dovşan meşədə həmin çaqqala rast gələndə şirin dilini işə salıb dedi:

-Çaqqal qardaş, mən meşədə bir ağac yeri bilirəm, koğuşu balla doludur. Gedək kömək elə, balı oradan çıxaraq.

Bal sözünü eşidən kimi çaqqalın ağzı sulandı. Dovşana dedi ki, tez elə, o ağacın yerini mənə göstər.

Dovşan çaqqalı arıların yaşadığı ağacın yanına gətirdi. Hündürdə olan koğuşu göstərib dedi ki, mən nə qədər eləyirəmsə, koğuşa çıxa bilmirəm. Çaqqal lovğa-lovğa dedi:

-İndi mən çıxaram.

O, bir neçə dəfə tulllansa da, bir şey alınmadı. Nəhayət, axırıncı dəfə pəncəsi ilə koğuşun qırağından yapışa bildi. Dovşan onu qızışdırdı:

-Çaqqal qardaş, qalx içəri gir, qalx içəri gir.

Çaqqal özünü birtəhər koğuşun içinə salmışdı ki, arılar onun üstünə cumdular. O qədər sancdılar ki,çaqqalın başı, bədəni şişdi. O, nə qədər çalışdısa da, şişmiş başını koğuşdan çıxara bilmədi. Dovşan ona məsləhət verdi:

-Çaqqal qardaş, balla dolu şanları qoparıb aşağı at ki, yerin gen olsun.

Söz çaqqalın ağlına batdı. Dovşan onun yerə atdığı bal dolu şanları öz yuvasına daşıdı. Sonra özü ilə böyük bir təbil tapıb gətirdi. Onu bərkdən döyüb qışqırdı:

-Çaqqal qardaş, qaç, ovçular gəlir.

Ovçu sözünü və təbilin səsini eşidən çaqqal özünü koğuşdan bayıra atıb qaçdı. Ancaq onun başının dərisi sıyrılıb ağacın dibinə düşmüşdü.






Dovşan həmin dərini götürüb atasının yanına apardı. Atası həmin qara çaqqal başının dərisindən oğluna papaq tikdi.

Aradan bir müddət keçdi. Çaqqal dovşanla rastlaşanda onun başındakı qara papağı görüb soruşdu:

-Dovşan, bu papağı hardan almısan?

Dovşan dedi:

-Bu papaq sənin başının dərisindən tikilib.

Çaqqal dedi:

-Madam ki, bu papaq mənim başımın dərisindəndir, onu mənə ver.

Dovşan papağı vermək istəməyəndə çaqqal onu tutub almaq istədi.

Dovşan qaçdı, çaqqal da onun dalınca. Elə o vaxtdan çaqqallar harda dovşan görürlərsə, onu tutmağa çalışırlar

.

**Tərcümə edib işləyəni: R.Y.Əliyev**

